Məlahət Nəvai

Малахат Наваи

# Qəlbdən gələn mahnılar!

# Песни для души!

2017

# Məlahət Nəvai

# Малахат Наваи

# Qəlbdən gələn mahnılar!

# Песни для души!

Vətəndən uzaqlarda....

Qərib həyatı yaşamaq onu skripkası və kamançası ilə dostlaşdırdı. Hər dəfə bu sirli aləti əlinə alıb, dinləndirəndə sanki bir mö`cüzəyə düşdü.

Gözdən keçirdiyi, dinlədiyi şe`rlərdən duyğulanaraq mahnılar bəstələdi. Özü də bilmədən ağlına gələnlər notlara çevrildi... Həmdəmi, dostu oldu yaratdığı nəğmələr, mahnılar.

Rusiyada yaşayıb, musiqi məktəblərinin birində skripka müəllimәsi işləyən Məlahət xanımın yetişdirdiyi tələbələri də çoxdu. O, rus musiqisi ilə yanaşı bütün millətlərdən olan tələbələrinə Azərbaycan musiqisinin sirlərini, bəstəkar mahnılarını da sevə - sevə öyrədir.

Vətən həsrəti, vətənpərvərliyi mahnılarına da çöküb. Vətənindən ayrı düşmüş Sücayət Kəlbəcərlinin vətən yanğısı, torpaq həsrəti ona da yansıdı. Sairin “Ay dağlar” şe`rinə mahnı bəstələdi.

Anasını erkən itirdiyinə görə ana mövzusu M. Nəvai üçün çox həssasdır.

Uşaqlıqdan sevdiyi görkəmli şair Əliağa Kürçaylının şe`rlərinə müraciəti onun yaradıcılığında üstünlük təşkil edir.

Ümumiyyətlə, Məlahət xanım bir çox şairlərin şe`rlərinə müraciət edib. Bunların içərisində Qənirə Paşayeva, Nazilə Səfərli, Cığatel İsaqızı, Vahid Əziz, Pünhan İsmayıllı, Nəsib Nəbioğlu, Rəşid Kamiloğlunun da şe`rləri var.

O daima yaradıcılık axtarışındadır. Qərib ölkədə yaşasa da, ürəyi daima doğma vətəni Azərbaycan üçün döyünür. Məhz ona görə də mahnılarının çoxunu doğulduğu, adı çəkiləndə qürurlandığı Azərbaycana həsr edir.

Lamiyə Biləndərli,
Jurnalist.

Вдали от Родины...

Жизнь на чужбине ещё больше подружила её со скрипкой и кеманчой. Каждый раз, когда она брала в руки эти волшебные инструменты и начинала играть на них, будто попадала в иной чудный мир.

Вдохновлённая прочитанными или услышанными стихами, она мысленно сочиняла музыку и переводила её в ноты… Близкими, друзьями ей стали композиции и песни.

Живя в России и работая в одной из музыкальных школ преподавателем игры на скрипке, Малахат ханум занимается с большим количеством учеников. Она с большим удовольствием обучает детей разных национальностей и культур не только русской, но и азербайджанской музыке.

В её песнях можно прочувствовать патриотизм и тоску по родине. Грусть живущей далеко от родине Суджаят Кяльбяджарли, тоску по родной земле тронула и Малахат ханум. К её стихотворению «О, горы», Малахат ханум сочинила песню.

Так как Малахат Наваи потеряла мать в раннем возрасте, тема матери занимает в её сердце особое место.

Обращение со слогом в своих стихах любимого ею с детства выдающегося поэта Алиагы Кюрчайлы её также вдохновляло.

То есть Малахат ханум часто обращается к стихам многих известных азербайджанских поэтов и ашугов. Среди них: Ганира Пашаева, Назиля Сафарли, Джигатель Исакызы, Пюнхан Исмаиллы, Вахид Азиз, Насиб Набиоглы, Рашид Камилоглы.

Малахат ханум находится в постоянном творческом поиске. Несмотря на то, что она живёт на чужбине, её сердце всегда бьется для родины – Азербайджана. Именно поэтому многие песни она посвящает родному и дорогому сердцу Азербайджану.

Ламия Билендерли,
журналист.

**Kitabın içindəkilər**

**Содержание**


Ana laylası. *Sözləri P. İsmayıllı.* Колыбельная мамы. *Слова П. Исмаиллы*................................6

Ana. *Sözləri Ş. Safikürdlü.* Мама. *Слова Ш. Сафыкюрдлю*........................................................8

Anamın xatirəsinə. *Sözləri R. Nəvai*. В память о моей мамы.*Слова Р. Наваи*............................10

Ay dağlar! *Sözləri S. Kəlbəcərli.* О, горы! *Слова С. Келбаджарли*...........................................13

Ayıbdı. *Sözləri V. Əziz.* Стыдно. *Слова В. Азиз*.........................................................................16

Azərbaycanım mənim. *Sözləri N. Nəbioğlu.* Мой Азербайджан. *Слова Н.Набиоглы*................19

Azərbaycan. *Sözləri M. Nəvai*. Азербайджан. *Слова М. Наваи*................................................21

Bakı. *Sözləri Ə. Kürçaylı.* Баку. *Слова А. Кюрчайлы*...............................................................23

Belə ola həmişə. *Sözləri Ə. Kürçaylı.* Пусть бы так было всегда. *Слова А. Кюрчайлы*.............25

Biz tələbə olanda. *Sözləri Ə. Kürçaylı*. Когда студентами мы были. *Слова А. Кюрчайлы*........28

Bu dildə. *Sözləri S. Kəlbəcərli.* На этом языке. *Слова С. Келбаджарли*...................................30

Bu sevginin adı nədi?-bilmirəm. *Sözləri C. İsaqızı.* Как назвать эту любовь?- я незнаю. *Слова Дж. Исакызы*.......................................................................................................................................32

Dənizdə nəğmə. *Sözləri Ə. Kürçaylı*. Песня о море. *Слова А. Кюрчайлы*..................................34

Düçdün xatirimə. *Sözləri Ə.Kürçaylı.* Вспоминаю о тебе. *Слова А.Кюрчайлы*..........................36

Əbədiyyət. *Sözləri Ə. Kürçaylı.* Вечность. *Слова А. Кюрчайлы*.................................................38

Ey naməmi oxuyan kəs. *Sözləri N. Səfərli.* Вы, читающие моё письмо. *Слова Н.Сафарли*.......40

Ey Rəbbim!. *Sözləri Q. Paşayeva.* Мой Господи!. *Слова Г. Пашаевой*.....................................42

Fəxr edirəm mən. *Sözləri N. Səfərli.* Я горжусь.*Слова Н. Сафарли*............................................46

Fəzri xiyaban. *Sözləri Ə. Kürçaylı.* Аллея памяти. *Слова А. Кюрчайлы*....................................48

Gəl dünyanı gəzək qoşa. *Sözləri Ə. Kürçaylı.* Давай обойдём этот мир вдвоём. *Слова А. Кюрчайлы*...................................................................................................................................52

Gəl mənim ömrümə. *Sözləri Ə. Kürçaylı.* Приди в мою судьбу. *Слова А. Кюрчайлы*................54

Həyat cən nə şirinsən!. *Sözləri P. İsmayıllı.* Жизнь, как ты прекрасна!.*Слова П. Исмаиллы*…57

Həyat sənə minnətdaram mən. *Sözləri Ə. Kürçaylı.* Жизнь, я благодарен тебе. *Слова А. Кюрчайлы*...................................................................................................................................59

İşıqlı səhərim. *Sözləri Ə. Kürçaylı.* Моё светлое утро. *Слова А. Кюрчайлы*..............................62

Kəndimiz. *Sözləri Ə. Kürçaylı.* Наше село. *Слова А. Кюрчайлы*................................................64

Küçəmizdən keçəndə sən. *Sözləri Ə. Kürçaylı.* Когда прошлась по улице ты. *Слова А. Кюрчайлы*....................................................................................................................66

Mən olmayanda. *Sözləri Ə. Kürçaylı.* Когда меня не станет. *Слова А. Кюрчайлы*......................69

Allah buna quzu kəsim! *Sözləri R.Kamiloğlu.* Господь, я все отдам ей в жертву! *Слова Р. Камилоглы*...................................................................................................................71

Qəlbin sıxılsa əgər. *Sözləri Ə. Kürçaylı.*Если станет тебе грустно. *Слова А. Кюрчайлы*............73

Qocalmısan. *Sözləri Ə. Kürçaylı.* Постарел. *Слова А. Кюрчайлы*...............................................75

Qurbanam. *Sözləri N. Nəbioğlu.* Стану жертвой твоей. *Слова Н. Набиоглы*............................78

Səadət. *Sözləri Ə. Kürçaylı.* Счастье. *Слова А. Кюрчайлы*.........................................................80

Sən mənə lazımsan. *Sözləri Ə. Kürçaylı.* Ты нужна мне. *Слова А. Кюрчайлы*...........................83

Səni uzaqlardan sevməkdə xoşdur. *Sözləri Q. Paşayeva.* Любить тебя издалека мне в радость. *Слова Г. Пашаевой*.........................................................................................................86

Sünbül. *Sözləri S. Vurğun.* Колос. *Слова С. Вургуна*...................................................................88

Torpağım. *Sözləri Ə. Kürçaylı.* Моя земля. *Слова А.Кюрчайлы*..................................................91

Vətən (№1) *Sözləri Ə. Kürçaylı.* Родина. *Слова А. Кюрчайлы*...................................................93

Vətən (№2) *Sözləri N. Nəbioğlu.* Родина. *Слова Н. Набиоглы*...................................................95

Vurğun göylər. *Sözləri Ə. Kürçaylı.* Влюблённые небеса. *Слова А.Кюрчайлы*...........................97

Vurulmuşam. *Sözləri R. Kamiloğlu.* Я влюбился. *Слова Р. Камилоглы*...................................101

Yadıma sən düşürsən. *Sözləri Ə. Kürçaylı.* Вспоминаю о тебе. *Слова А.Кюрчайлы*.................103

Yallı. *Sözləri Ə. Kürçaylı.* Яллы. *Слова А. Кюрчайлы*..............................................................106

Yuxuda yox aşkarda gəl. *Sözləri Ə. Kürçaylı.* Приходи не во сне, а наяву. *Слова А. Кюрчайлы*..................................................................................................................108

Zeynəbim. *Sözləri M. Nəvai.* Моя Зейнаб. *Слова М. Наваи*.....................................................110

# Ana laylası
# Колыбельная мамы

Sözləri P.İsmayilli
Слова П.Исмаиллы






Hardan aldın bu sehri,
Bilim, ana laylası.
Sənsiz açılardımı,
Dilim ana laylası.

Bax könlümün halına,
Düşüb xəyal dalına.
Bu yaşımda çalına,
Həlim ana laylası.

Gül çəmənsiz olmasən,
Sümbül dənsiz olmasın.
Bir gün sənsiz olmasın,
Elim ana laylası.

# Ana
# Мама

Sözləri Ş.Safıkürdlü
Слова Ш.Сафыкюрдлю



Nəqarət:

Şirin laylan ilə söz tutub dilim,
Nəğməli dilinə qurbanam ana.
İlk dəfə əlindən yapışıb əlim,
O dayaq əlinə qurbanam ana.

1. Şam kimi əriyib, şam kimi yandın,
Rahatlığı dandın, gəncliyi dandin.
Sən mənim ömrümü öz ömrün sandın,
İtən hər ilinə qurbanam ana.

Nəqarət:

2. Ağlım kəsənəcən lap ağ eylədim,
Yükümü çiynində bir dağ eylədnm.
Qara tellərini mən ağ eylədim,
Ağaran telinə qurbanam ana.

Nəqarət:

# Anamın xatirəsinə
# В память о моей мамы

Sözləri R.Nəvai
Слова Р.Наваи

**Con dolore** ♩ = 100




11
f
-zəl- sən mə-lək - sən A - na Heç - nə
tay ol - maz dün-ya - da sə - nə Da - hi -
sən, gö - zəi- sən mə-lək - sən A - nə Tə-ya - rə-lər
sı- ğan bö-yük sə- ma - san Mən ki a - qu -
şun- da bir ça - yam A - na. Ey Tə-ya - rə-lər
sı - ğan bö-yük sə - ma- san Mən ki a - qu - şun- da
bir ça - yam A - na Sə-nə qur- ban ol- sun
mən oğ - lun A - na Sə-nə qur- ban ol- sun mən oğ-
lun A - na Sə - nə qur - ban ol - sun
mən oğ - lun A - na

1. Ağlasan ağlaram, gülsən gülərəm,
Sənsiz bu dünyanı neylərəm ana.
Bilsəm xatirinə dəymişəm sənin,
Qurtarmaz dərd kimi göynərəm ana.
Sənə qurban olsun mən oğlun ana.

Nəqarət:

Heçnə tay olmaz dünyada sənə,
Dahisən, gözəlsən, mələksən ana.
Təyyarələr sığan böyük səmasan,
Mən ki aquşunda bir çayam ana.
Sənə qurban olsun aən oğlun ana.

2. Ay ana hardasan səsin gəlməyir,
Sənsiz bu oğlunun üzü gülməyir.
Zalım fələk dediyini söyləyir,
Ürəyim dözəmmir sənsiz ay ana.
Sənə qurban olsun mən oğlun ana
Sənə qurban olsun mən oğlun ana.

Nəqarət:

# Ay dağlar!
# О, горы!

Sözləri S.Kəlbəcərli

Слова Ш.Келбаджарлы




p
Dər-dim ar - tır gü - nü gün- dən Mə - ni
qəm- dən qə - mi mən- dən Al, ay dağ- lar al, ay
dağ- lar Mə - ni qəm - dən qə - mi mən- dən Al, ay
mf
dağ- lar al, ay dağ-lar Gü - nəş gə - zib yo - ru-
lan- da Sa - zın si - mi qı - rı - lan- da Göy - də
1.
qar- tal vu - ru - lan- da Mə - ni-ya - da sal ay
2.
p
dağ- lar au dağ- lar. Bir "Kə-rə - mi" çal ay
rit.
dağ - lar. Bir "Kə - rə - mi" çal ay
dağ - lar

Mən gedirəm qürbət elə,
Sən salamat qal, ay dağlar.
Halallıq ver, qoy qalmasın,
Ürəyimdə xal, ay dağlar.

Hanı məndə dözüm sənsiz,
Sönəcəkdir közüm sənsiz.
Qan tökəcək gözüm sənsiz,
Olacağam lal, ay dağlar.

Dostum-yarım keçir gendən,
Dərdim artər günü-gündən.
Məni qəmdən, qəmi məndən,
Al, ay dağlar, al, ay dağlar.

Günəş gəzib yorulanda,
Sazın simi qırılanda,
Göydə qartal vurulanda,
Məni yada sal, ay dağlar.
Bir "Kərəmi" çal, ay dağlar.

# Ayıbdı

## Стыдно

Sözləri V.Əziz
Слова В.Азиза




şı va - r çox o - ca - ğın kü - lün - də
Göz ya - şı var
çox o - ca- ğın kü - lün - də
Eş-qi na-kam,
o qız - lar- dan a - yıb - dı. E
Eş-qi na-kam,
o qız - lar- dan a - yıb - dı.
Tən-ha - lar- dan, yal-qız
Daş-lar - da - kı ya - zı-
lar- dan a - yıb - dı. E
Eş-qi na-kam, o qız-
lar- dan a - yıb - dı. E
Sə-ma - da - kı ul-duz-
lar- dan a - yıb - dı. dı
lar- dan a - yıb - -
mf
p
1.
2.
3

1.Xumar çeşmə salma məni bu hala
Başındakı yarpızlardan ayıbdı.
El içində gəzmək olmur "qol-qola"
Tənhalardan, yalqızlardan ayıbdı.

Gizli qalsın kəməntlərin belində
Sığalların görünməsin telində.
Göz yaşı var çox ocağın külündə
Eşki nakam, o qızlardan ayıbdı.

2.Hakqın dizi bükülməzdi, əzməyin
Bərkiyəcək, sınmalını döyməyin.
Tariximin izlərinə dəyməyin
Daşlardakı yazılardan ayıbdı.

Nəğmələrin, sevən qəlbin bəstəsi
Dodağıma söz havası, tar səsi.
Həya etsin yerdə gəzən dəstəsi
Səmadakı ulduzlardan ayıbdı.

# Azərbacanım menim
# Мой Азербайджан

Sözləri N. Nəbioğiu
Слова Н.Набиоглы



Vurulmuşam, a yurdum,
gözəl keçən çağına.
Misralarım sığınıb,
Hər daşına, dağəna.
Adını tanıtdıran,
min ne`mətli bağına.

Nəqarət:

Qurbadır canım mənim,
Sən adım-sanım mənim.
Damarda qanım mənim,
Azərbaycanım mənim.
Şöhrətim şanim mənim,
Sənsən gümanım mənim.
Sən adım-sanım mənim,
Azərbaycanım mənim.

Alovun sönməz deyil,
qızınaram oduna.
Göylərə yüksələrəm,
uçaram qanadınla.
Adın doğmadan doğma,
fəxr edirəm adınla.

Nəqarət:

Al günəşə səslənən,
min niyyətin, arzun var.
Qobustandan səs salan,
pozulmayan yazın var.
Torpağına ruh verən,
Kürüm var, Arazım var.

Nəqarət:

# Azərbaycan
# Азербайджан

Sözləri M.Nəvai
Слова М.Наваи

**Moderato** ♩ = 100






Ah... yaman darıxmışam mən,
Ah... yenə kövrəlmişəm mən.
Saçlarıma dən düüşüb,
Sənsiz qocalmışam mən.
Ey odlar yurdum
Azərbaycanım!
Şöhrətim, şanım,
Qurbandır canım,
Azərbaycanım!

Sənsiz bir günüm olmayıb,
Həsrətindən qəlbim yanıb.
Adın göylərə ucalıb,
Sevincdən gözüm yaşarıb.
Ucal-ucal Azərbaycan!
Yaşa-uaşa Azərbaycan!
Odlar yurdum,
Doğma yurdum,
Ana yurdum,
Azərbaycan!
Azərbaycan!
Azərbaycan!

# Bakı
# Баку

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы

**Presto** ♩ = 160



Uzaq elli əziz dostum soruşdu:
-- Sizin Bakı söylə, necə şəhərdir?
Dedim: -- Qardaş, mənim doğma şəhərim
Yazılmamış, oxunmamış əsərdir.

Çiçək desən -- könül açan çiçəyi,
Külək desən -- ev uçuran küləyi,
Qasırğada ağ dalğalar ləçəyi,
Sakit gündə gözü mavi Xəzərdir.

Nəğməsidir zavodlarım fit səsi,
Suya düşüb buruqların kölgəsi,
Ətirlidir bağlarının meyvəsi,
Ağ şanısı elə bil ki, şəkərdir.

Dost görəndə tükənməyir hörməti,
Düşmən görsə, dərya olar nifrəti,
Bir qədər də dəlisovdur adəti,
Əziz dostum, Bakı belə şəhərdir.

# Belə ola həmnşə
# Пусть бы так было всегда

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы




2.
f
! Be-lə şə . Göz-lə ri - nə ba-xı - ram Ne-cə şən-dir,
gü - lüm - sər On-lar - da yox qüs - sə - dən Sı-xın - tı - dan bir ə-
1. 16 2. p
sər Göz-lə Sən gül - mə-sən bir - cə an
Y-rək tit - rır, can ə - sər Yox-sa gü-nün a - lo - vu
1. 2. mf
Do-lub - dur bu gü - lü - şə ? Sən-gül şə ? Be-lə o - la
hə - mi - şə ! Be-lə o - la hə - mi - şə ! Yox-sa gü-nün a - lo-
1. 2.
vu Do-lub - dur bu gü - lü - şə ? Be-lə şə? Kaş ki,
bü-tün se - vən - lər Bi-zim ki - mi gö - rü - şə

Pəncərəmə uzanan
Yaşıl-yaşıl əldimi?
Yarpaqlar ilk baharın
Salamına gəldimi?
Seyr edək bu lövhəni--
Doğrudan gözəldimi?
Dayanmışıq səninlə
Qoşa, üzü günəşə,--
Belə ola həmişə!

Gözlərinə baxıram,
Necə şəndir, gülümsər.
Onlarda yox qüssədən,
Sıxıntıdan bir əsər.
Sən gülməsən bircə an
Ürək titrər, can əsər,
Yoxsa günün alovu
Dolubdur bu gülüşə?--
Bələ ola həmişə!

Saçlarına baxıram--
Gözün kimi qaradır,
Yarısı gözün üstə,
Yarısı yanlardadır.
Gülüm yığma onları,
Qoy dağılsın, dara,dur,
O qara saçlarına
İstəmirəm dən düşə,--
Belə ola həmişə!

Gör nə qədər qısaltdıq
Həsrətin mənzilini,
Ovcumda tutmuşam mən
İndi sənin əlini.
Yaman qırdıq hicranın,
İntizarın belini!
Kaş ki, bütün sevənlər
Bizim kimi görüşə,--
Belə ola həmişə!

# Biz tələbə olanda

# Когда студентами мы были

Sözləri Ə.Kürçaylı

Слова А.Кюрчайлы






1. Yanaqlar odlu lalə,
Saçlar qara şəlalə.
Qaşlara bax, qaşlara,
Dartılıb halə-halə.
Qızlar belə deyildi
Biz tələbə olanda.

Qara gözlər badamı,
Dəli elər adamı.
Bir yol dönüb baxmaqla
Yandırırsan atamı.
Qızlar belə deyildi
Biz tələbə olanda.

2. Qırçınlı ipək donu
Gözəl göstərir onu.
Sanki bəyaz mərmərdən
Mekelancelo yonub.
Qızlar belə deyildi
Biz tələbə olanda.

Telləri çətir-çətir,
Oğulsan davam gətir.
Gözünün zülmətində
Adam yol azır,itir.
Qızlar belə deyildi
Biz tələbə olanda.

3. Danışır--sözü nəğmə.
Yeriyir-- izi nəğmə.
Belə məftun etməyib
Hər zaman bizi nəğmə.
Qızlar belə deyildi
Biz tələbə olanda.

Hər gülü dərməmişik,
Yara göndərməmişik.
Yəqin biz səhv etmişik,--
Biz fikir verməmişik,
Qıziar elə beləymiş
Biz tələbə olanda.

# Bu dildə
# На этом языке

Sözləri S.Kəlbəcərli
Слова С.Келбаджарли



Azəri dilinə qurban olum mən,
Mənə layla çalıb anam bu dildə.
Bir dəfə ah çəkib uf deyərəmmi,
Yüz dəfə alışıb yanam bu dildə.

Gözlərimin biri quru, biri nəm,
Ta qoymayln ürəyimlə sürünəm.
Bülbül təki nəğmələrə bürünəm,
Sahildən-sahilə qonam bu dildə.

Qəriblik salıbdı saçlarıma dən,
Ürəyimdə vətən, dilimdə vətən.
Yad yerdə yüz yerdən əyilincə mən,
Polad tək bir yerdən sınam bu dildə.

Nəsimi tək soyun məni, dözərəm,
Ələskərlə yeri-göyü bəzərəm.
Fizulinin qəzəlində gəzərəm,
Vurğunun heykəlin yonam bu dildə.
Bu dil mənim eşqim, məhəbbətimdir.
Bir "hə" pıçıldayıb sonam bu dildə.

# Bu sevginin adı nədi?- bilmirəm

# Как называть эту любовь?- я незнаю

Sözləri C.İsaqızı

Слова Дж.Исакызы






Bu sevginin gözləri bir dənizdir,
Bu sevginiz göylərkən tər təmizdir.
Anam qədər, balam qədər əzizdir,
Bb sevginin adı nədi?-bilmirəm.

Yaradanın yaratdığı gözəldi,
Sevda ueni, sevda yeri əzəldi.
Bir əsərdi, bir şe`rdi, qəzəldi,
Bu sevginin adı nədi?-bilmirəm.

Fərqimiz çox, fərq içində fərqliyik,
Fərqimiz yox, fərq içində fərq bizik,
Bir anadan doğulmamış əkizik,
Bu sevginin adı nədi?- bilmirəm.

Yuxu gördüm, yuxum ərşə dağıldı,
Ağıllıyam, ağlım dəli ağıldı.
Bu sevgimiz oxunmamış nağıldı,
Bu sevginin adı nədi?- bilmirəm.

Bu sevginin içində bir buta var,
Bu butanın içində bir əta var,
Bu sevginin içində bir xəta var,
Bu sevginin adı nədi?- bilmirəm.

Zamanın hökmüdü, vaxt sevgisidi,
Qədəri, qiyməti, bəxt sevgisidi.
İlahi yazısı, hak sevgisidi,
Bu sevginin adı nədi?- bilmirəm.

# Dənizdə nəğmə
# Песня о море

Sözləri Ə. Kürçaylı
Слова А.Кюрчайлы



1. Üfüqlər arasında
Gün batır, axşam düşür.
Dənizin aynasında
Ay ulduzla görüşür.
Yatır ləpələr çin-çin,
Qağayılar dincəlir.
Dənizdən bir nəğmənin
Əks-sədası gəlir.

Buludlar karvan-karvan,
Ala-tala buludlar.
Sonsuz səma tağından
Düşür yola buludlar.
İndi gözlərin sənin
Ulduztək bulud dəlir,--
Dənizdən bir nəğmənin
Əks-sədası gəlir.

2. Tək buruğun ziyası
Uzaqda yanıb-sönür.
Sınır suyun aynası,
Gəmi sahilə dönür.
Yolu dolur nur ilə,
Gecə keçir,dan gülür.
O gəmiylə sahilə
Oyaq bir nəğmə gəlir.

Sənsən sahilə dönən...
Ağardıqca qızıl dan,
Sənsən ulduztək sönən,
Günəş kimi parlayan.
Yatdı dəniz, qağayı,
Yatdı ləpə, ağ bulud,
Göydə yatırdın ayı,
Hər yanı tutdu sükut.

3. Yatmadın bircə özün,
Yatmadı bircə nəğmən.
Gecə bəyaz gümdüzün
Nəğməsini dedin sən.
O, "dur--dedi mənə də,--
Günəş ziyası gəlir!"
Qulağıma yenə də
Onun sədası gəlir.

Dənizdən bir nəğmənin
Əks-sədası gəlir.
O gəmiylə sahilə
Oyaq bir nəğmə gəlir.

# Düşdün xatirimə
# Вспоминаю о тебе

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы



Bu gün xatirimə düşdün təzədən
Qəfildən şaxıyan bir şimşək kimi.
Sanırdım anmaram səni bir də mən,
Qoxlanıb atılmış bir çiçək kimi.

Səni xatırladım...
İstərdim fəqət
Heç vaxt düşməyəsən yadıma bir də.
Tamam unudula köhnə məhəbbət,
Tamam unudula xatirələr də.

Durdun göz önündə məğrur, gülümsər,
İncə nəvazişli, mehriban, təmiz,
Həyat təbəssümlü, gözəl...
Bir qədər
Özündən tez çıxan --
Həm də səbəbsiz...

Düşdün xatirimə...
Mən surətini
İstədim gözümdən qovam uzağa.
Xəyalın göstərdi ös qüdrətini --
İradəm çatmadı səndən qaçmağa.

Bircə yol baxmaqla dərdi dağıdan
Gözlərin yalandan, riyadan uzaq.
Düşdün xatirimə
Lap ilk çağından
Sevincimə şərik, qəmimə ortaq.

Sən bu xislətinlə,
Bu aləminlə
Düşdün xatirimə, düşdün qəfildən.
Qəlbimin bugünkü dərdi-qəmilə
Cidala başladın adətinlə sən.

Yox, səni unutmaq əmri-mahaldı,
Yuvan sinəmdəki sevən ürəkmiş.
Yadıma düşməyin dərdimi aldı,
Eşqin, nəvazişin mənə gərəkmiş.

Yox, səni unutmaq
Coşqun selləri
Tərsinə üzməkdən daha çətinmiş.
Göyərçin qanadı -- bir cüt əllərin
Mənim pərvaz edən səadətimmiş...

# Əbədiyyət
# Вечность

Sözləri Ə. Kürçaylı
Слова А.Кюрчайлы






Mən sənin nəğmənin əks-sədası,
Könlünün tükənməz arzularıyam.
Qışında--bir ılıq bahar havası,
Yayında--bir sərin quzey qarıyam.

Gecə zülmətində, qaranlığında
Qəfildən parlayan qəmərinəm mən.
Kədərli çağında, qəmli çağında
Dərdini dağıdan xəbərinəm mən.

Səadətlə keçən illərinəm mən
Mənsiz itirdin bu səadəti.
Günəşə uzanan əllərinəm mən,
Məndədir qəlbinin od hərarəti.

Mən sənin yaşanmış dəqiqələrin,
Hələ yaşanacaq ayın, ilinəm.
Mən sənin məhəbbət adlı əsərin,
Sevgi xallarıyla ötən dilinəm.

Mən sənin...
Təsviri mümkünmü məgər?
Hər şeyi söyləmək çətindir, çətin.
Axı, necə deyim... Dağlar, dərələr
Kiçik zərrəsidir əbədiyyətin.

Mən sənin nəğmənin əks-sədası,
Könlünün tükənməz arzularıyam.
Qışında--bir ılıq bahar havası,
Yayında--bir sərin quzey qarıyam.

# Ey naməmi oxuyan kəs

# Вы, читающие моё песьмо

Sözləri N.Səfərli

Слова Н.Сафарли



1. Ey naməmi oxuyan kəs,
Aş oxu yalnız olanda.
Gecələr köçsün səhərə,
Buludlar üz-göz olanda.

Mənim naməm çox uzundu,
Məhim naməm çoxda qısa.
Ya səni xoşbext eyləyər,
Ya batırar sonsuz yasa.

2. Qürbətlərin aşiqinə,
Vətənnən həsrət nəfəsi.
O həsrətki yar dilində,
Gecələrin eşq nəğməsi.

Yazdım yarımçık məktubu,
Ümidim var alan olsun.
Məktubu acana deyil,
Oxuyana salam olsun.

# Ey Rəbbim!
# Мой Господи!

Sözləri Q.Paşayeva
Слова Г.Пашаевой

**Allegretto** ♩ = 120




Qa-pı-nı aç bu qu-lu-na, ey Rəb
ff
-bim "Nəfs" a-dın-da bir şey-ta-nı tərk et-
dim Hə-yat nə-dir ? Gec də ol-sa
poco a poco cresc.
fərq et-dim Ən bö-yük EŞQ.. O, sən
miş-sən dərk et-dim Qa-pı-nı aç bu qu-lu-
na, ey Rəb-bim Qa-pı-nı aç
dimm.
bu qu-lu-na ey Rəb-bim
p
"Nəfs" a-dın-da bir şey-ta-nı tərk et-dim
Hə-yat nə-dir ? Gec də ol-sa fərq et-
cresc.
dim Ən bö-yük EŞQ.. O, sən-miş-sən


dərk et - dim
ff
Qa-pı-nı aç bu qu-lu - na,
ey Rəb - bim
Qa - pı - nı aç
bu qu-lu - na
ey Rəb - bim
cresc.
Qa-pı-nı aç
bu qu-lu - na
ff
ey Rəb
dimm.
- bim
p
A
a
2
a
a
a
Qa - pı - nı aç
rit.
bu qu-lu - na ey Rəb - bim

Mən "Var"lıqkən bir "heç"liye çevrildim,
Mən Eşq adlı tək heçliyə çevrildim,
"Mən"i atıb Sənə doğru çevrildim.
Qapını aç bu quluna, ey Rəbbim!

"Nəfs" adında bir şeytanı tərk etdim,
Həyat nədir?- Gec də olsa fərk etdim,
Ən böyük EŞQ... O, Sənmişsən--dərk etdim,
Qapını aç bu quluna, ey Rəbbim!

Mən EŞQ... adlı bir a`təşdə qovruldum,
Göz yaşında çox arındım, duruldum,
Eşqin ilə mən yenidən doğuldum,
Qapını aç bu quluna , ey Rəbbim!

Muhannəmə dil tökməkdən yoruldum,
Mənki eşqin təknəsində yoğruldum,
Yalnış yoldan dönüb, Sənə doğruldum,
Qapını aç bu quluna, ey Rəbbim!

# Fəxr edirəm mən
# Я горжусь

Sözləri N.Səfərli
Слова Н.Сафарли

**Allegro** ♩. = 80






Qızıla bələnmiş ana torpağım,
Doğma diyarımla fəxr edirəm mən.
Bu ana torpağa övlad olmağım,
Nurlu sabahımla fəxr edirəm mən.

Əlı bərəkətli, çörəyi paylı,
Anam ellərimdi, haylı-haraylı.
Şe`rim, bayatım var, qoşmam, gəraylım,
Sərlü-sərvətimlə fəxr edirəm mən.

Ulu Borşalının bir balasıyam,
Elimin məhəbbət, eşq qalasıyam.
Türkəm, türklülüyün bir damlasıyam.
Şərəfli adımla fəxr edirəm mən.
Doğma Borçalımla fəxr edirəm mən.

# Fəxri xiyaban
# Аллея памяти

Sözləri Ə. Kürçaylı
Слова А.Кюрчайлы




mf
da də-fn o - lu - nub bu xi - ya - ban - da Meh
p
di Ad - ri - a - da u - zaq - da de - yil Bur-
dimm.
mf
da dəfn o - lu - nyb bu xi - ya - ban - da Meh
p
di Ad - ri - a - da u - zaq - da de - yil Bur-
dimm.
p
da dəfn o - lu - nub bu xi - ya - ban - da Bur-
da də-fn o - lu - nub mə - nim eş - qi - mi Mə-
p
nim tor - pa - ğı - mı dü - şü - nən hər kəs On-
la-rin nə - fə - si, söy - lə, de-yil - mi Mə-
nim si - nəm - də - ki bu od - lu nə - fəs ?! On-
la-rın nə - fə - si, söy - lə, de-yil - mi Mə-


mf
nim si - nəm - də - ki bu od - lu nə - fəs ?! İs -
f
tər yüz qə - ri - nə keç - sin o gün - dən Ya
bur - da, ya da ki, baş - qa mə-kan - da Və-
tən tor - pa - ğıy - çün bir vaxt can ve - rən Bur-
da - dır, bur - da - dir bu xi - ya - ban - da ! Və-
tən tor - pa - ğıy - çün bir baxt can ve - rən Bur-
p
da - dır, bur - da - dır bu xi - ya - ban - da ! Bur-
dimm.
da - dər, bur - da - dər bu xi - ya - ban - da ! Bu xi -
rit.
ya - ban - da ! Bu xi - ua - ban - da

Qalxıram yuxarı... Fəxri xiyaban,
Cərgəylə düzülmüş məzar daşları!
Əlimdə papağım,köksümdə həycan
Anıram hörmətlə vətəndaşları.

Baxıram... Zərdüştün qəbridir sanki
Qarşımda görünən birinci məzar.
Mənə elə gəlir, dostum, inan ki,
Burdadır Nizami, Babək, Bəxtiyar.

O böyük Fizuli İraqda deyil,
Burda dəfn olunub--bu xiyabanda.
Mehdi Adriada--uzaqda deyil,
Burd dəfn olunub--bu xiyabanda.

Burda dəfn olunub mənim eşqimi,
Mənim torpağımı düşünən hər kəs.
Onların nəfəsi, söylə, deyilmi
Mənim sinəmdəki bu odlu nəfəs?!

İstər yüz qərinə keçsə o gündən,
Ya burda,ya da ki, başqa məkanda,
Vətən torpağıyçün bir vaxt can verən
Burdadır, burdadır-- bu xiyabanda!

# Gəl dünyanı gəzək qoşa
# Давай обойдём этот мир вдвоём

Sǝzlǝri Ə. Kürçaylı
Слова А.Кюрчайлы



1. Gəl dünyanı gəzək qoşa,
Sən mənimçün,
Mən səninçün,
Bu yollarda dolaq yaşa--
Sən mənimçün,
Mən səninçün.

Dağa baxaq, düzə baxaq,
Sözsüz belə, sözə baxaq,
Yalnız bir cüt gözə baxaq--
Sən mənimçün,
Mən səninçün.

2. Yazda dolu bulud olaq,
Yayda yaşıl söyüd olaq,
Ağır gündə ümid olaq--
Sən məninçün,
Mən səninçün.

Addayaq əllini, yüzü
Qoy sınasın həyat bizi,
Hifz eləyək eşqimizi--
Sən mənimçün,
Mən səninçün.

# Gəl mənim ömrümə
# Приди в мою судьбу

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы

**Moderato** ♩. = 65 - 80




dərs a - laq Gəl o - nun əq-lin - dən biz də dərs a-
hə - yat - tək Dur-ğun bir a - lə - mə gə - lən hə - yat -
laq Sə - ni göz - lə - yi - rəm mən nə za- man - dır
tək Gəl mə-nim öm-rü - mə, tez gəl, a- man - dır
Gəl o - nun əq-lin - dən biz də dərs a - laq
Dur-ğun bir a - lə - mə gə - lən hə - yat - tək
1.
Sə - ni göz - lə - yi - rəm mən nə za- man - dır
Gəl mə-nim öm-rü - mə, tez gəl, a - man -
2.
p
Züi // dır Gəl mə-nim öm-rü - mə, tez gəl, a- man - dır
dimm.
Gəl mə-nim öm-rü - mə, tez gəl, a- man - dır

Torpaq quruyurdu--yağdı yağışlar,
Güllər üşüyürdü--günəş göründü.
Bulaqlar qəmgindi--dilləndi quşlar.
Üfüq gülab rəngli dona büründü.

Yamaclar çılpaqdı--açdı lalələr,
Dəniz durğun idi--tufan oyandı,
Qaranlıq qatıydı--açıldı səhər,
Göylərin yaxası alışdı, yandı.

Sən bu təbiətin ahənginə bax,
Gəl onun əqlindən biz də dərs alaq--
Səni gözləyirəm mən nə zamandı.

Zülmətə günəştək, şaxtaya odtək,
Durğun bir aləmə gələn həyattək
Gəl mənim ömrümə, tez gəl, amandə!

# Həyat sən nə şirinsən!
# Жизнь, как ты прекрасна!

Sözləri P.İsmayıllı
Слова П.Исмаиллы



Həyat sən nə şirinsən,
Kim sənnən doydu getdi?.
Gedənlər öz qəlbini,
Dünyada qoydu getdi.

Sənnən doymaq olarmı?,
Çoxun-azın da şirin.
Həyat qışında şirin,
Həyat yazında şirin.

Həyat sevincin qədər,
Kədərin də şirindir.
Səni mə`nalandıran,
O keçmə-keçlərindir.

Sənnən doymaq olarmı,
Həyat sən nə şirinsən.
Sən həyatın qədrini,
Yalnız bilənlərinsən.

# Həyat sənə minnətdaram mən
# Жизинь, я благодарен тебе

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы




crec.
ff
tor-pa-ğı, e - li ver-mi- sən Göl-lər-dən bəx-ti-mə Göy göl, Ma- ral
p
göl Çay-lar-dan pa - yı-ma A - raz, Kür dü - şüb. Hə - yat, ü -
rə - yi-mi ö - zün a - ra, gör Sə-nə bu - na gö-rə tə-şək-kür dü
p
şür. Nə qə - dər bö-yük- müş sən-də sə - xa - vət. Mə - nə
bu tor-paq- da çö- rək ver- mi - sən. Od - lar öl - kə-si- nin
1.
hüs-nü-nə ziy - nət. Mə-nə sev-mək ü - çün ü- rək ver - mi -
2.
p
- sən. ver - mi - sən Mə-nə sev-mək ü-çün ü- rək ver - mi -
pp
sən. Mə-nə srv-mək ü - çün ü - rək ver - mi - sən
dimm.
Mə-nə sev-mək ü - çün ü- rək ver - mi - sən

Gözümdə qalmayıb arzu da, kam da,
Həyat, yalnız sənə minnətdaram mən.
Uğurlu bir gündə,bir xoş məqamda
Məni bu torpağa oğul etmisən.

Məni yad yurda da ata bilərdin,
Övlad da edərdin başqa məkana.
Onda həsrətimdən yanıb ölərdim
Uzaqdan baxanda Azərbaycana.

Həyat, çox sağ ol ki, dillər içində
Mənə Azərbaycan dili vermisən.
Sərraftək seçmisən ellər içindən
Mənə bu torpağı, eli vermisən.

Göllərdən baxtıma Göy göl, Maralgöl,
Çaylardan payıma Araz,Kür düşüb.
Həyat, ürəyimi özün ara, gör--
Sənə buna görə təşəkkür düşür.

Nə qədər böyükmüş səndə səxavət,
Mənə bu torpaqda çörək vermisən.
Odlar ölkəsinin hüsnünə ziynət,
Mənə sevmək üçün ürək vermisən.

# İşıqlı səhərım
# Моё светлое утро

Sözləri Ə. Kürçaylı
Слова А.Кюрчайлы



1. Deyin, bu dünyada nə görmüşəm mən?
Ən gözəl günlərim hələ daldadir.
Günəş alovundan nur alıb gələn
İşıqli səhərim hələ daldadır.

Nəqarət:
Mən sakit göl kimi durulmamışam,
Köpüb daşmaqdan yorulmamışam.
Sanki heç ömründə vurulmamışam,
Məhəbbət əsərim hələ daldadır.

2. Vurğunam insanın səadətinə,
Onun dözümünə, mətanətinə.
Çıxıram qəlblərin səyahətinə,
Ən böyük səfərim hələ daldadır.

Nəqarət:

# Kəndimiz
# Наша село

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы






Salam, Kür! Salam, Kür! Baba ocağı,
Dağıtdın könlümün hər möhnətini.
Bir dəfə öpməklə burda torpağı
Duymazsan dünyanın səadətini.

Burda ağ qovağın budaqlarını
Kim belə naşıtək əhəngləyibdir?
Sıxdım gövdəsinə dodaqlarımı,
Mənim kənd həsrətim onu əyibdir.

Burda çöl ceyranlı, səma durnalı,
Yulğunlar ucalıb, meşələşibdir.
Burda sürü izi, orda at nalı,
Ətəkdə turaclar eşələnibdir.

Torağay torpağı ayaqlarıyla
Çörək üzü kimi naxışlayıbdır.
Təbiət rəngləri çalarlarıyla
Bizim kəndimizə bağışlayıbdır.

Burda oğullar var--qız ismətlidir.
Burda qızlar da var--oğul kimi mərd.
Analar lap Muğan təbiətlidir--
Yaz kimi mülayim, payız kimi sərt.

Başına döndüyüm Kürün qırağı,
Dağıtdın könlümün hər möhnətini.
Bir dəfə öpməklə burda torpağı,
Duymazsan dünyanın səadətini.

# Küçəmizdən keçəndə sən

# Когда прошлась по улице ты

Sözlərri Ə.Kürçaylı

Слова А.Кюрчайлы




lar da E - lə bil- dim yе - rə en - di
Yar, kü-çə - miz- dən ke - çən - də sən. Ay, kü-çə - miz- dən
ke - çən - də sən Yar, kü-çə - miz- dən ke - çən - də aən.
Yar, kü-çə - miz- dən ke - çən - də sən Can, kü-çə -
miz- dən ke - çən - də sən. Ay, kü-çə - miz- dən ke - çən -
də sən Yar, kü-çə - miz- dən ke - çən - də sən. Yar, kü-çə-
miz- dən ke - çən - də - sən Can, kü-çə -
miz- dən ke - çən - də - sən
mf

Elə bildim bahar gəldi,
Sellər caşdu, sular gəldi.
Yaz müjdəli qaranquşlar
Uçdu qatar-qatar gəldi
Küçəmizdın keçəndə sən.

Nəqarət:
Gur işıqlar şö`ləlndi,
Hər tərəfə nur ələndi.
Ay da, gün də, ulduzlar da
Elə bildim yerə endi
Küçəmizdən keçəndə sən.

Keçdi bulud, yatdı külək,
Qönçəsini açdı çiçək.
Neçə təzə nəğmə qoşdu
İnsan kimi dindi ürək
Küçəmizdən keçəndə sən.

Nəqarət:

# Mən olmayanda
# Когда меня не станет

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы






1. Dözmür dalğalara ömür gəmisi,
Sonuncu sahilə çatıram demək.
Bir ömür yaşadəm mən də cəmisi
Dünyanı tərk edən əcdadımıztək.

Axıb kükrəyəcək Araz da, Kür də,
Yenə vaz atacaq Muğanda ceyran.
Üzeyirin nəğməsi doğulan yerdə
Təbiət özünə olacaq heyran.

2. Qarlı Savalandan Talış bicarı
Yenə görünəcək yaşıl xalıtək.
Analar doğacaq mərd oğulları
Hər biri Cavanşir, hər biri Babək.

Yıxacaq onların idrakı, ağlı
Mən müşkül sandığım yüz maneəni.
Onlar seyr edəcək bağçalı-bağlı
Vahid məmləkətli, vahid vətəni.

Ellər xatırlayar məni o zaman,
Deyər: "Bir Kürçaylı oğlum da vardı.
Üzünə dəysə də külək, qar, boran
Mənim taleyimə nəğmə yazardı".

# Allah buna quzu kəsim

# Господь, я все отдам ей в жертву

Sözləri R.Kamiloğlu

Слова Р.Камилоглы



Sən yaratdın bu gözəli,
Allah buna quzu kəsim.
Gördüm onu, oldum dəli,
Allah buna quzu kəsim.

Dil badamı, dodaq baldı,
Sinə bəyaz, yanaq aldı,
Hüzurunda dilim laldı,
Allah buna quzu kəsim.

Baxdı mənə naz eylədi,
Qış ömrümü yaz eylədi,
Diyən adı Nazilədi,
Allah buna quzu kəsim.

Kim nə deyir, desin mənə,
Ağıl başdan çıxdı yenə,
Rəşid söylə dönə-dönə,
Allah buna quzu kəsim.

# Qəlbin sıxılsa əgər...
# Если станет тебе грустно...

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы



1. Düşsən uzaq elə sən,
Qəlbin sıxılsa əgər--
Yurdunu yad elə sən,
Kədərin keçib gedər.

Düşün ki, orda yenə
Yasəmən açıb çiçək,
Öpüb sahillərin
Kür axır əvvəlkitək.

2. Boz söyüd, ağcaqovaq
Yenə qol-budaqlıdlr,
Düşün, yenə o torpaq
Bağçalıdır, bağlıdır.

Toyları, məclisləri
duysan mən duyan kimi,
Ürəyinin kədəri
Dağılar duman kimi.

3.O sazı, o söhbəti
Harda olsan unutma,
Könlünün məhəbbəti
Doğma yurdunu atma.

Düşsən uzaq elə sən,
Qəlbin sıxılsa əgər,
Yurdunu yad elə sən,
Kədərin keçib gedər.

# Qocalmısan
# Постарел

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы




O, bü-tün çay-lar- dan bö-yük - dür, de- dik Mu-ğa-na
nəğ-mə-ni ne-çə cür de- dik Eş-qi dil - dil ö- tən dil qo-
mf
1.
cal-ma-sın. Kə-pə- zin ba-şın- da bə-yaz qa-ra bax
2.
Ne-cə həm - a-həng- dir ağ - la qa - ra, bax! Ey
Ne-cə həm - a-həng- dir ağ - la qa - ra, bax! Da-im ca -
1.
2.
van qal- sın Ta- lış, Qa-ra- bağ Şir-van qo -
-cal-ma- sın Mil qo - cal-ma- sın. Ey Şir-van qo - cal-ma- sın
p
Mil qo - cal-ma- sın Şir-van qo - cal-ma- sın Mil qo -
-cal-ma- sın.Ey Şir-van qo - cal-ma- sın Mil qo - cal-ma- sın
dimm.
Mil qo - cal-ma- sın Mil qo - cal-ma- sın

Aşıq, qocalırıq el deyə-deyə,
Təki bu anamız el qocalmasın.
Qara saçımıza bəyaz qar səpən
Aylar qocalmasın, il qocalmasın.

Sən sazda,mən sözda elə Kür dedik,
O, bütün çaylardan böyükdür, dedik.
Muğana nəğməni neçə xür dedik,
Eşqi dil-dil ötən dil qocalmasın.

Kəpəzin başında bəyaz qara bax,
Necə həmahəngdir ağla qora, bax!
Daim cavan qalsın Talış, Qarabağ,
Şirvan qocalmasın, Mil qocalmasın.

# Qurbanam
# Стану жертвой твоей

Sözləri N. Nəbioglu
Слова Н.Набиоглы






1. Dil açanda sənə can-can demişəm,
Sənə ürək, könül açan demişəm,
Harda olsam Azərbaycan demişəm,
O müqəddəs torpağına qurbanam.

Əvəzin yox, bunu vallah bilirən,
Səni ünid, səni pənah bilirəm,
Vətən, səni nurlu sabah bilirəm,
Xoş sədana, sorağına qurbanam.

2. Adın, sənin ucalıqdan enməsin,
Oğulların inadından dönməsin,
Şölələnsin heç bir zaman sönməsin,
Nur çiləyən çırağına qurbanam.

Dayanmısan mərd diyarlar səfində,
Gül-çiçəyin yuyulsun dağ şehində,
Başın üstə azadlığın mehində,
Dalğalanan bayrağına qurbanam.

# Səadət
# Счастье

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы




1.
2. p
Gən cə çi - na - rı - nın xal xal köl - gə - si
2.
1.
2.
Qu-zey qa - rı ki - mi saf - dı, sə rin di. A ba-lam. di
poco a poco cresc.
Sə-rin - di, sə-rin - di. Sə-rin - di, sə-rin-
di. Qu-zey, qu - zey, qu - zey, qu - zey, qu - zey, qu - zey. Hey...
f
Qu-zey qa - rı ki - mi saf - dı, sə - rin - di. A ba-lam. Qu-zey qa -
16
rı ki - mi ay - lə-ləm saf - dı, sə - rin - di

Gəl, yaddan çıxardaq soyuducunu,
Gəl, Kürün istihal suyundan içək.
Alaq əlimizə yolun ucunu,
Ldçından, Salyandan, Qazaxdan keçək.

Axsın könlümüzə talış ləhcəsi,
Şəki bağlarını gəzək ha indi.
Gəncə çinarının xal-xal kölgəsi
Qusey qarı kimi safdı, sərindi.

Günəş gözlüyünü çıxarıb ataq,
Gözü qamaşdırsın Muğan günəşi.
Göy göltək Kəpəzin yanında yataq,
Quşlarla bir görək doğan günəşi.

Gəl, qumral qoyndan çalaq dələmə,
Laləli çəmənlik yaşıl süfrəmiz,
Günü Qarabağda axşam eləmə,
Ağsu dolayından keçməliyik biz.

Vətən intəhasız, ömür azdı, az,
Bu qısa ömür də keçməsin hədər.
Adam səadəti evdə çağırmaz,
Adam səadətin dalınca gedər.

# Sən mənə lazımsan
# Ты нужна мне

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы





8
dər-man- tək mə-nə gə - rək-sən Hə - ya-tin yol-la-rı
tu-fan-lı - dır bil O - na gər - mək ü- çün si- nə, gə -
a tempo
mf
- rək - sən Sən ü mid tə-səl - li sən şi - rin
Bir az yax - şı dü- şün gü-lüm doğ -
- ar - zu Sən ö- mür yel-kə - ni du-man - da
ru - su Sə-nə bun - lar ü - çün la - zı - mam
1.
2.
p
çən - də mən də. Sə-nə bun - lar ü- çün la-zı- mam
mən də. Sə - nə bun - lar ü - çün
la - zı- mam mən də

Sən mənə lazımsan sutək, havatək,
Sən mənə lazımsan öz canım qədər.
Səni arzulayır sinəmdə ürək,
Bu böyük həsrəti duymursan məgər?

Qəmli günlərində lazımsan mənə--
Qovasan qəlbimin kədərini sən.
Xoşbəxt günlərimdə lazımsan yenə--
Böyük sevincimi yarı böləsən.

Keyf üçün, zövq üçün, nəş`əyçün deyil,
Xəstəyə dərmantək mənə gərəksən.
Həyatın yolları tufanlıdır, bil,
Ona gərmək üçün sinə, gərəksən,

Sən ümid, təsəlli,sən şirin arzu.
Sən ömür yelkəni dumanda, çəndə!
Bir az yaxşı düşün, gülüm, doğrusu,
Sənə bunlar üçün lazımam mən də.

# Səni uzaqlardan sevməkdə xoşdur

# Любить тебя издалека мне в радость

Sözləri Q.Paşayeva

Слова Й.Пашаевой






Günəş də qısqanır, ay da qısqanır
Dəniz də gəsədlə boylanır hərdən.
Səni uzaqlardan sevməkdə xoşdur
Mən heç xoşlanmıram həsrət sözündən.

Günlər keçmək bilməz, yollar qəzəbli
Nə bir mənə tərəf gətirər səni
Gecələr yuxuda tapsam da hərdən
Gündüzlər, gerçəklər itirər səni.

Səni uzaqlərdan sevməkdə xoşdur
Yollar qəzəblənir, günlər uzanır
Gecələr yuxuma səni gətirir
Bəlkədə fikrimdən dönərəm deyir

Şe`rlər ağladır, sözlər ağladır
Nəğmələr sızladır sənin səsində
Eşq bilmir mən səndən dönən deyiləm
Anlamır dönmərəm son nəfəsimdə.

Səni uzaqlardan sevməkdə xoşdur
Özlən imtahana çəkir səbrimi
İllər acığından əyir qəddimi
Neyləsə əhdimnən dönən deyiləm.

Həyat qəzəblənir dur, yetər deyir
Ömrüm bu çilədən yoruldum deyir
İllər geri dönməm, bir düşün deyir
Bu könül onları dinləmə deyir.
Səni uzaqlardan sevməkdə xoşdur.

# Sünbül
# Колос

Sözləri S.Vurğun
Слова С.Вургуна




ba- har gə-lən-də ba- har gə-lən- də ba-har.
El- lər sə - ni a-nar, sə - ni sa - lam - lar sə - ni sa - lam
lar sə - ni sa - lam - lar. Göz üs - tə ye-rin var
bi-zim Və- tən - də. Bö-yük bir öl-kə- nin gö-zü var sən - də.
Sün-bü-lüm, sün-bü-lüm, sa - rı sün-bü- lüm Sən-mi-sən
çi - çə-yim, sən - mi- sən gü lüm?! Qal-dır-sın ba-şı - nı
göy - lə-rə sa - rı Ge-niş xır - man-lar-da dərz ta-ya - la
rı Bax-dıq-ca düş-mə-nin gö-zü qa - ral
sın Xə - zan yar - pa - ğı tək
ü - zü sa - ral - sın sın.

Sünbülüm, sünbülüm, sarı sünbülüm!
Adına söz qoşum barı, sünbülüm!
Ellər həsrətindir bu əmri verən;
Şirin gecələrdə yuxuma girən
Yaşıl tarlamızın mənzərəsidir,
Xırman üstündəki ana səsidir.

Sünbülüm, sünbülüm, sarı sünbülüm!
Könlümün qonqğı, yarı sünbülüm!
Qabaqdan al geyib gələndə bahar,
Ellər səni anar, səni arzular.
Göz üstə yerin var bizim Vətəndə,
Böyük bir ölkənin gözü var səndə.

Sünbülüm, sünbülüm, sarı sünbülüm!
Sənmisən çiçəyim, sənmisən gülüm?!
Qaldırsın başını göylərə sarı
Geniş xırmanlarda dərz tayaları.
Baxdıqca düşmənin gözü qaralsın,
Xəzan yarpağı tək üzü saralsın!..

# Torpağım

# Моя земля

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы



Hamıdan çox torpağıma inanıram,
İstəyirəm hər an onu seyrə çıxam.
Üzərində yeriyirəm, dayanıram,
Düşür zərif sinəsinə ağırlığım.

İnanıram, yenə möhkəm saxlayacaq,
Qoymayacaq məni o, dar ayağında.
Cavan ölsəm, bulaqlarla ağlayacaq,
Qoca ölsəm, dəfn edəcək qucağında.

Nəqarət:
Bir dən atsam, bu gün onun cadarına
Mənim üçün, min-min sünbül yetirəcək.
Ehtiyacım olsa qışda baharına
Qar üstündə qızılgül də bitirəxək.

İnanıram, düşməninin qabağına
Özgəni yax, ilkin məni göndərəcak.
Yara dəysə bir ağacın budağına
Yalnız məni o, məlhəmə döndərəcək.

Lazım gəlsə çevirəcak yad qəbrinə
Mənim üçün gülzar olan hər qarışı.
Yer üzünə min il sonra gəlsəm, yenə
Kaş mən olum bu torpağın vətandaşı!

Nəqarət:

Sözləri Ə.Kürçaylı

Слова А.Кюрчайлы

# Vətən (№1)
# Родина






1. Mən səndən bir yaşıl budaq istədim,
Sən mənə bəxş etdin zümrüd meşələr.
Mən səndən kiçik bir otaq istədim,
Sən mənə bəxş etdin dilbər guşələr.

Mən səndən adicə həyat istədim,
Sən məni çəxardın min-min səhərə.
Mən səndən kiçik bir qanad istədim,
Sən məni uçurdun ənginliklərə.

Mən səndən bir dəstə çiçək istədim,
Mənimçün dörd fəsli yaz eylədin sən.
Mən səndən ilhamlı ürək istədim,
Sən mənə tab verdin milyon ürəkdən.

2. Mən səndən kiçik bir sevinc istədim,
Sən mənə bəxş etdin bütöv səadət.
Mən səndən bir parça bürünc istədim,
Sən mənə bəxş etdin xəzinə, dövlət.

Mən səndən istədim sçiq bir aiın,
Sən mənə bəxş etdin əzəmət, vüqar.
Mən də başı açıq, ayağı yalın
Yolunda can qoysam, yenə az olar.

Bəlkə buna görə əzəmətlisən--
Nəyin var vermisən əsirgəmədən?!
Sən bir ana kimi səxavətlisən,
Anam Azərbaycan, vətən, can vətən!

# Vətən №2
# Родина

Sözləri N.Nəbioğlu
Слова Н.Набиоглы



Xəyalım əl çəkməz bircə an belə,
Səninlə bağlıdır xatirələrim.
Hər zaman ümidim, pənahım olan,
Qoynuna uzalı qalıb əllərim.

Elə sevinmişəm şad xəbərindən,
Qəminə bələnib göynəmişəm mən.
Qoynundan uzaqda yaşasam da mən,
Bütün dərdi-sərin keçib sinəmdən.

Mənim ruhum, canım o torpqdadır,
Başdan-başa sevdim odlar elini.
Deyirəm götürəm, bağrıma basam,
Torpaq ürəyini, torpaq əlini.

Haraya yollansam,haraya getsəm,
Yolumda nurumsan, aynamsan, Vətən!
Sən mənim inamım, xoş gələcəyim,
Acılı-şirinli dünyamsan, Vətən!

# Vurğun göylər
# Влюблённые небеса

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы




f
rə. Mə-həb - bət be - lə - dir... Qırp-mır gö -
- zü - nü . Qırp-sa eşq atə - şi sö-nər elə
bil. O lal ba - xış-lar - la de-yir sö -
- zü - nü . Mə-həb - bət be - lə - dir , sev-gi be -
f
lə - dir. Ge - cə - lər Ay ilə , ul-duz - lar
Yay-da atəş ilə , qış-da qar
1.
ilə . Gün-düz - lər Gunəş - lə ba - xır göy
ilə . O sa - lam gön-də - rir bar - lı -
2.
4
ff
ye - rə. çöl - lə - rə. Kə-sə - ri
olar - mı , özün söy - lə sən. Ömür - lük


sax - la - san qı - lın - cı qın - da. Gəl nöq-
san ax - tar - ma sə - nə zil - lə - nən . Gö - zü-
mün əbə - di açıq - lı - ğın - da. Ge - cə-
Yay-da
lər Ay ilə , ul - duz - lar ilə . Gün-düz-
ataş ilə , qış-da qar ilə . O sa-
lər Gü-nəş - lə ba - xır göy yere.
lam gön-də - rir bar - lı
çöl - lə - rə . O sa - lam gön - də - rir
bar - lı çöl - lə - rə . O sa -
f
1.
2.

Mənə elə gəlir vurulub göylər
Yerin cəlalına--baxçaya, bağa.
Onunçün əzəldən bu günə qədər
Səma heyran-heyran baxır torpağa.

Nəqarət:
Gecələr Ay ilə, ulduzlar ilə,
Gündüzlər Günəşlə baxır göy yerə.
Yayda atəş ilə, qışda gar ilə
O salam göndərir barlı çöllərə.

Məhəbbət belədir...Qırpmır gözünü,
Qırpsa eşq atəşi sönər elə bil.
O lal baxışlarla deyir sözünü--
Məhəbbət belədir, sevgi belədir.

Nəqarət:

Kəsəri olarmı, özün söylə sən,
Ömürlük saxlasan qılıncı qında?!
Gəl nöqsan axtarma sənə zillənən
Gözümün əbədi açıqlığında.

Nəqarət:

# Vurulmuşam
# Я влюбился

Sözləri R.Kamiloğlu
Слова Р.Камилоглы






Ellər sizdən nə gizlədim,
Bir gözələ vurulmuşam.
Qara qaşa, qara gözə,
Qara telə vurulmuşam.

Dümağ ağdı lələ sinə,
Görməmişəm belə sinə,
Kim vurulmrz beləsinə,
İncə belə vurulmuşam.

Billur kimi ağ buxağa,
Alma kimi al yanağa,
Qönçə kimi bal dodağa,
Şirin dilə vurulmuşam.

Çiçəyi daşdan çıxarır,
Yetlml qışdan çıxarır,
Ağlımı başdan çıxarır,
Gülə-gülə vurulmuşam.

# Yadıma sən düşürsən
# Вспоминаю о тебе

Sözləri Ə.Kürcaylı
Слова А.Кюрчайлы





dü - şür, yel ə - sir. E... Heç bil - mi - rəm nə - dən - dir kön-lüm
ram o - ta - ğım - dan. E... Sev - gi - li - lər kü - çə - də de - yib
1. 8 2.
be - lə tə - lə - sir. Göy - də // sir
gü - lür meh - ri - ban... Tək-lik // ban
p
Yol-la - rı - na ba-xı - ram nə gə - lən var, nə ge-
On-la - rı be-lə xoş - bəxt be-lə məs`-ud gö - rən
dən. E... Qəl-bim - də - ki in-ti - zar nə-dir, dü - şü - nü - rəm
də. E... Duy - ğu - lar dal - ğa ki - mi çır - pı - nır bu si - nəm -
1. 2. p 3 3 3
mən . Yol-la // mən. Ya-dı-ma sən ya-dı-ma sən ya-dı-ma
də . On-la // də.
3 3 3
sən dü - şür - sən. E... Ya-dı-ma sən ya-dı-ma sən ya-dı-ma
1. 3 2. pp 3 3
sən dü - şür - sən . Ya-dı-ma // sən . Ya-dı-ma sən ya-dı-ma
3 3
sən ya-dı-ma sən dü - şür - sən . Ya-dı-ma
3 3
sən ya-dı-ma sən ya-dı-ma sən dü - şür - sən.

Hər çiçəyin öz ətri
hər gülün öz rəngi var.
Hər qəlbin öz istəyi,
öz sözü, ahəngi var.
Hər insan öz ömrünə
dost seçir, həmdəm seçir.
Mənimsə ürəyimdən
qəmli bir nisgil keçir---
Yadıma sən düşürsən.

Göydə bulud dolaşır
axşam düşür, yel əsir,
Heç bilmirəm nədəndir
könlüm belə tələsir.
Yollarına baxıram
nə gələn var, nə gedən,
Qəlbimdəki intizar
nədir, düşünürəm mən--
Yadıma sən düşürsən.

Təklik üz verir mənə,
çıxıram otağımdan,
Sevgililər küçədə
deyib-gülür mehriban...
Onları belə xoşbəxt,
belə məs`ud görəndə
Duyğular dalğa kimi
çırpınır bu sinəmdə--
Yadıma sən düşürsən.

# Yallı
# Яллы

Sözləri Ə.Kyrçaylı
Слова А.Кюрчайлы



1. Gəlin yallı gedək biz,
Könlümə yallı düşüb.
Xəyalım babaların
Ruhu ilə görüşüb.

Gəlin yallı gedək biz,
Gedək Şərur yallısı,
Mərdlik, dözüm, azadlıq,
Hünər, qürur yallısı.

2. Bir yallı ki, Qobustan
Qayasəna yazılıb,
Bu torpağın ruhuna,
Mayasına yazılıb.

Əllər biri-birini
Qoy tutsun, ayrılmasın.
Əllərin bu birləşən
Zənciri qırılmasın.

3. Yallı gedən cərgələr
Həm də sıx olsun gərək,--
Lap İçəri şəhərin
Qala divarlarıtək.

Halayımız uzansın
Qranit çəpər kimi,
Yurdumuzun belinə
Dolansın süpər kimi.

4. Heç tonqal da çatmayaq,
Qüdrətdəndir odumuz.
Elə oddan yaranıb
Azərbaycan yurdumuz.

Qaynaqlasın əlimiz
Dəmirtək bir-birinə,
Dönək bütöv vətənin
Dənir sərhədlərinə.

# Yuxuda yox aşkarda gəl
# Приходи не во сне, а наяву

Sözləri Ə.Kürçaylı
Слова А.Кюрчайлы






Mən səni yuxuda görürəm hər gün
Ən şirin arzular, diləklər kimi.
Hərdən qanad açib pərvaz edirsən
Başımn üstündə mələklər kimi.

Hərdən vüsal olur hədiyyən mənə,
Həsrət yaxın düşmür qətiyyən mənə.
Hərdən e`tinasız baxıb sən mənə
Ötürsən yanımdan küləklər kimi.

Demirəm yanıma ilk baharda gəl--
İstəsən tufanlı ruzigarda gəl.
Ancaq yuxuda yox, aşikarda gəl,
Gəl, sözlü-nəğməli ürəklər kimi.

# Zeynəbim

# Моя Зейнаб

Sözləri M.Həvai
Слова М.Наваи






1. Dövlıtimin qiymətli bir qaşısan,
Dilimizin sözüsən, avazısan.
Ucaldıqca ucalan qartalısan
Həm bəstəkar, həm nəğməkar Zeynəbim,
Qou həmişə səsin gəlsin Zeynəbim!

Nəğməkərin dünyamıza səs salıb,
Adın-sanın dövlətimi ucaldıb,
Yağı düşmən hey alışıb, hey yanıb.
Yandır-yandır düşmənləri Zeynəbim,
Həm bəstəkar, həm nəğməkar Zeynəbim!

2. Mahnıların sümüyümü oynadır,
Gülüşlərin gözlərimi parladır.
Hər nəğmənlə qəlbim, ruhum şadlanır.
Tariximə iz salmısan Zeynəbim,
Göylərin parlaq ulduzu Zeynəbim!

Allah səni bəd nəzərdən qorusun,
Bəxt ulduzun hər zaman parlaq olsun.
Şe`rlərin, nəğmələrin bol olsun.
Ucal-ucal yüksəklərə Zeynəbim.
Həm bəstəkar, həm nəğməkar Zeynəbim,
Qoy həmişə səsin gəlsin Zeynəbim!



Gecələr ay olmaq istəyirəm mən...
Sevən ürəklərin məhəbbətindən
Səma ucalıqda pay almaq üçün,
Ən yüksək qübbəyə ucalmaq üçün...
Ordan nur səpərəm mən incə-incə
Bu ana torpağa dan sökülüncə.

(Ə.Kürçaylı)